# “Şərqin Füzuli dühası”

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü, Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və Xaçmaz rayon Üçgünqışlaq kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyi çərçivəsində “Şərqin Füzuli dühası” adlı ədəbi-bədii tədbir keçirilib. Çıxışlarda Məhəmməd Füzulinin Azərbaycan anadilli poeziyanın inkişafında rolu barədə söhbət açılıb.



Şairin qəzəlləri səsləndirilib, Cahangir Cahangirovun “Füzuli” kantatası ifa olunub. Füzulinin yubileyinə həsr olunmuş rəsm əsərinin təqdimatı keçirilib.

Tədbirin sonunda Mərkəzi Elmi Kitabxanasının “Füzuli – 530” adlı kitab sərgisinə baxış olub. Yubiley ilində nəşr olunmuş kitablar muzeyə hədiyyə edilib.

***



Salyan Tarix-Diyarşünaslıq Muzeyində Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş “Məni candan usandırdı...” adlı tədbir keçirilib.

Çıxışlarda dahi şairin həyat və yaradıcılığından bəhs edilib, Füzulinin Azərbaycan və dünya ədəbiyyatı tarixində xüsusi yeri olduğu diqqətə çatdırılıb.

Salyan Dövlət Kukla Teatrı və rayon Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən kompozisiyalar və mahnılar təqdim olunub.

Mədəniyyət.- 2024.- 1 noyabr (№81).-S.4.